**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

UNEC

**Təsdiq edirəm:**
**“Biznes və logistika” kafedrasının**
**müdir əvəzi: i.e.n.dos., M.Ə.ƏLİYEV**

**09 Sentyabr 2025-ci il**

# “BİZNES ETİKASI” fənni üzrə
# İŞÇİ TƏDRİS PROQRAMI
# (SİLLABUS)[i]

**I.Fənn haqqında məlumat**

| | |
|---|---|
| **FƏNNİN KODU:** | 00194 |
| **FƏNNİN NÖVÜ:** | əsas |
| **TƏDRİS İLİ** | 2025/2026 |
| **TƏDRİS SEMESTRİ:** | yaz (Y-2) |
| **FƏNNİN TƏDRİS FORMASI:** | əyani |
| **FAKULTƏ:** | Biznes və menecment |
| **KAFEDRA:** | Biznes və Logistika |
| **QRUPLAR:** | 500(3) və 500(4) |
| **TƏDRİS YÜKÜ** | 60 saat (30 müh./30 m-ş.) |
| **KREDİT SAYI:** | 6 (altı) |
| **FƏNNİN TƏDRİS DİLİ:** | azərbaycan dili |

**II.Müəllim haqqında məlumat**

| | |
|---|---|
| **FƏNNİN TƏDRİS EDƏN:** | PROF.MURADOV R.Ş. |
| **ELEKTRON POÇT:** | rashad_muradov@unec.edu.az |

**İŞ TELEFONU:** +99412-440-33-67

**III.Fənnin təsviri**

Bu fənn ümumi (əsas) fənlər siyahısına daxil olmaqla, bakalavr pilləsində təhsil alan tələbələrə gündəlik biznes fəaliyyəti zamanı bazarlarda firma və müəssisələr, habelə tədarükçülərlə alıcılar arasında yaranan münasibətlərdən doğan etik problemlərin həlli üçün açar rolu oynayacaq baza bilikləri təqdim edir.

Bu fənn etikanın elm kimi təşəkkül tapmasından başlayıb, onun digər iqtisad yönümlü fənlərlə əlaqələri, etikaya diqqətin artmasının səbəbləri və onun daxili quruluşunu öyrənir. Bildiyimiz kimi, Azərbaycanda biznesin səmərəli təşkili və perspektiv inkişafının təmin edilməsində, xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsində, sivil bazar münasibətlərinin formalaşdırılmasında biznesin etikası mühüm əhəmiyyətə malikdir. Perspektiv və uzunmüddətli işgüzar əlaqələrin yaradılması, onların səmərəli formada həyata keçirilməsi, beynəlxalq standartlara uyğun işgüzar görüşlərin, danışıqların təşkili və keçirilməsi, korporativ mədəniyyətin formalaşdırılması, heyətin səmərəli idarə olunmasının təşkili, biznesdə baş verə biləcək münaqişələrin aradan qaldırılması və s. biznes sferasında qəbul olunmuş etik prinsiplərin, normaların və qaydaların gözlənilməsini zəruri şərt kimi meydana çıxartmışdır. Bu baxımdan fənnin öyrənilməsi bir çox məqsədləri özündə ehtiva edir.

**IV. Fənnin məqsədi və vəzifələri:**

Fənnin tədrisində məqsəd tələbələrə müxtəlif bazar tipləri şəraitində biznes davranışının müxtəlif aspektlərini, mövcud konsepsiyaların əsas müddəalarını aşılamaq, nəzəri bilik və praktiki vərdişləri birləşdirərək onlarda məntiki düşünmə və təhlil bacarıqlarını formalaşdırmaqdır. Tədris prosesi boyunca tələbələrə bütün mövzular üzrə lazım olan nəzəri biliklər ötürülür, təcrübədən real şirkətlərin timsalında biznes etikasının tətbiqi xüsusiyyətləri izah olunur və etik kodekslərin mahiyyəti öyrədilir. Bu zaman tələbələrdə biznes sferasındakı düzlüyə, səmimiyyətə, verilən vədlərə tam dəqiqliyi ilə əməl olunmasına və bazarda mövcud qanunauyğunluğa, qəbul edilmiş qayda və ənənələrə uyğun səmərəli fəaliyyət göstərmək qabiliyyətinə əsaslanan işgüzar etikaya ( davranış prinsipləri, normaları və qaydaların

məcmusu) münasibət formalaşdırılır. Məhz bütün bunların nəticəsində biznes fəaliyyətində qəbul edilmiş etik prinsiplərin, normaların və qaydaların gözlənilməsi, biznesin etikasına əməl edilməsi biznesmenlərin sosial məsuliyyətinin gücləndirilməsinə, onların sosial proqramlarda iştirakının təmin olunmasına, etik normativlərin müəyyənləşdirilməsinə, sosial təftişlərin təşkili və keçirilməsinə böyük təkan verir.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- Biznes etikası haqqında tələbələrdə təsəvvür yaratmaq;
- Biznes etikasının əsas konsepsiyalarını tələbələrə izah etmək;
- Korporativ mədəniyyətin tipologiyasını onlara çatdırmaq;
- Etikanın makro və mikro problemlərini tələbələrə izah etmək;
- Onlarda korporativ sosial məsuliyyətə müsbət meylləri formalaşdırmaq;
- Onlara etikanın bütün növləri (idarəçilik, inzibati, iqtisadi və peşəkar) haqqında bilikləri ötürmək və s.

**V. Fənnin öyrənilməsinin nəticələri:**

Fənnin tədrisi başa çatdıqdan sonra tələbələr aşağıdakıları **bilməlidirlər**:

- "Biznes etikası və sosial məsuliyyət" fənninin pedmeti və metodunu;
- Biznes etikasına artan diqqətin səbəblərini;
- Biznes etikasının əsas konsepsiyalarını;
- Korporativ mədəniyyətin tipologiyasını;
- Təşkilatın etik səviyyəsinin yüksəldilməsi üsullarını;
- Biznes etikasının mikro və makro mühit amillərini;
- Korporativ sosial məsuliyyət anlayışının mahiyyətini;
- İnzibati etikanı;
- İqtisadi etikanı;
- Peşə etikasının dilemmalarını;
- İdarəçilik etikasının əsas müddəalarını.

Həmin əldə edilmiş biliklər əsasında tələbələr aşağıdakıları **bacarmalıdırlar**:

- Biznes etikasının müxtəlif konsepsiyalarını fərqləndirməyi;
- Korporativ etikanı təşkil edən elementləri təhlil etməyi;

- Təşkilat daxilində əxlaqi standartlara qiymət verməyi;
- Mikro və makro mühit amillərini xarakterizə etməyi;
- İslamda biznes etikasının rolunu müəyyən etməyi;
- Peşə əxlaqının dilemmalarını izah etməyi;
- Menecerlərin idarəetmədə rolunu şərh etməyi;
- İdarəetmədə rəhbərlik üslublarını fərqləndirməyi və s.

**VI. Fənnin fənnin mühazirə mövzuları:**

1. Biznes etikasi fənninin predmeti,metodu və əsas vəzifələri
2. Biznes etikasinin inkisaf mərhələləri
3. Biznes etikasinda əsas konsepsiyalar
4. Korporativ mədəniyyət
5. Biznesdə mikroetika problemləri
6. Korporativ sosial məsuliyyət
7. Biznesdə makroetika problemləri
8. Inzibati etika
9. Pesəkar etika
10. Idarəcilik etikasi
11. Iqtisadi etika
12. Biznesdə etiket
13. Işgüzar münasibətlər etikasi
14. Islamda işgüzar münasibətlər etikasi
15. Azərbaycanın müasir işgüzar etikasi

**VII.Prerekvizitlər:**

Yoxdur

**VIII. Korekvizitlər:**

Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənlərin də tədris olunması zərurəti yoxdur.

**IX. Fənnin tədris metodologiyası:**

Bu fənnin tədrisində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində xüsusi nümunələrin (keys-study) öyrənilməsi və təhlili, esse

(və ya sərbəst işlərin) yazılması, habelə test tapşırıqlarının yerinə yetirilməsi kimi tədris üsullarından isifadə edilə bilər. Bunlardan savayı tədris prosesində müxtəlif tipli (iqtisadi və sosial-siyasi ədəbiyyat, geniş çeşidli İnternet resurslarından, real həyatdan götürülmüş misallar üzrə müzakirələrə və mövzu üzrə seçilmiş tapşırıqların həllinə də yer ayrıla bilər. Bütün bunların həyata keçirilməsi üçün tələbələr müəyyən edilmiş mətnlərlə və digər qiraət materialları ilə tanış olmalı və tapşırıqları vaxtında yerinə yetirməlidirlər.

## IX.Əsas dərslik və ədəbiyyat

**Əsas ədəbiyyat:**

1. Muradov R.Ş. **Biznesin etikası.** Dərs vəsaiti. Bakı: “ İqtisad Universiteti” Nəşriyyatı, 2017.- 190 səh.
2. **İşgüzar etika.** Azərbaycan biznesmenləri üçün vəsait. Bakı, 2004
3. Professorun tələbə kabinetində yerləşdirdiyi mühazirələr – **unec.edu.az**

**Əlavə ədəbiyyat:**

1. Abbasov A.B**. Biznesin əsasları.** Dərslik. Bakı, 2018
2. Петрунин Ю.Ю., Борисов В.К. – **Этика бизнеса.** М., 2001
3. Уткин Э.А. **Этика бизнеса.** М., 2001
4. Капто А.С. **Профессиональная этика** / А.С. Капто.-М.; Ростов н/Д: СКАГС, 2006. - 799 с.
5. Ксенофонт. **Домострой** /Ксенофонт // Воспоминая о Сократе. - М.,1993.- С. 218-240.

## X. Fənnin mühazirə mətnləri

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, habelə zəruri məşğələ materialları elektron formatda Azərbaycan Dövlət İqtisad Universitetinin saytında http: //muallim.unec.edu.az/ yerləşdirilir.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

# Fənnin mövzular üzrə ayrılmış tədris saatları

| Həftə | Mövzuların adları | Məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | **Biznes etikasi fənninin predmeti,metodu və əsas vəzifələri** | İşgüzar həyatın etik problemləri - fənnin predmeti və metodu. Biznes etikasının elmi fənn kimi formalaşması. Peşəkar etikanın bir növü kimi biznes etikasına diqqətin artırılması səbəbləri. Biznes etikası ilə digər elm sahələri arasındakı qarşılıqlı əlaqələr. Biznes etikasının quruluşu. | *Muradov R.Ş.* ***Biznesin etikası.****; 1 fəsil* |
| 2 | **Biznes etikasinin inkisaf mərhələləri** | Biznes etikasının inkişaf mərhələləri və təkamülü. Antik dövrün etikası və inkişaf istiqamətləri. Antik mütəfəkkirlərin (qədim Babilistan, Misir, Hindistan, Çin) iqtisadi-etik baxışları. Azərbaycanda erkən dövrdə iqtisadi-etik baxışların inkişafı. Zərdüştilik və onun iqtisadi-etik ideyalarının yayılması. Orta əsrlər dövrünün iqtisadi-etik fikirləri. Orta əsrlər Avropa mütəfəkkirlərinin iqtisadi-etik baxışları. Orta əsrlərdə Şərq ölkələri mütəfəkkirlərinin iqtisadi-etik baxışlarının formalaşması və inkişafı. Orta əsrlərdə Azərbaycan mütəfəkkirlərinin iqtisadi-etik baxışları. Intibah, yeni dövrün etikası və inkişaf istiqamətləri. Antroposentrizm və humanizm. Klassik alman fəlsəfəsi nümayəndələrinin iqtisadi-etik baxışları. XIX əsrin Azərbaycan fəlsəfi fikrinin nümayəndələrinin (M.F.Axundovun və A.Bakıxanovun) iqtisadi-etik baxışları. | http://muallim.unec.edu.az/ |
| 3 | **Biznes etikasinda əsas konsepsiyalar** | Dini baxışlarda iqtisadi-etik prinsiplərin yer alması və biznes fəaliyyətində bu prinsiplərin rəhbər tutulması. Faydalığa əsaslanan utilitarizm konsepsiyasının əsas prinsipləri. Utilitarizm nəzəriyyəsinin əsas xüsusiyyətləri.Utilitarizm ideyaların inkişafı. Diontik etika və onun inkişafı. Ədalət etikası haqqında təsəvvürlərə əsas yanaşmalar. Ədalət nəzəriyyəsinin əsas prinsipləri və qaydaları. | *Muradov R.Ş.* ***Biznesin etikası.****; 2 fəsil* |
| 4 | **Korporativ mədəniyyət** | Korporativ mədəiyyətin tipologiyası: ticarət mədəniyyəti: əlverişli müqavilələr mədəniyyəti (spekulyativ mədəniyyət); inzibati mədəniyyət; investisiya mədəniyyəti. Firma və mənəvi standartlar. Iş yerində etik standartların tətbiqi prinsipləri. Təşkilatın etik səviyyəsinin artırılması üsulları. Rəhbərlərin və sıravi əməkdaşların etik davranışını artıran tədbirlərin və metodların vəhdəti. Işçilərin yaradıcılıq potensialının istifadə olunmasına yönəlmiş korporativ etikanın prinsipləri. | *Muradov R.Ş.* ***Biznesin etikası.****; 3 fəsil* |
| 5 | **Biznesdə mikroetika problemləri** | Menecerlərin təşkilatlardakı rolu. Rəhbərlərin və tabe olanların etik vəzifələri. Rəhbərliklə bağlı olan əsas mənəvi problemlər. Xidmət pozuntuları problemi. Əlverişli əlaqələr etikasının mahiyyəti. | *Muradov R.Ş.* ***Biznesin etikası.****; 4 fəsil* |
| 6 | **Korporativ sosial məsuliyyət** | Biznesin sosial məsuliyyəti anlayışının təkamülü. "Xidmətetmə" konsepsiyası. "Korporativ sosial məsuliyyət" anlayışı. Sosial məsuliyyət haqqında müzakirələr. Sosial əməkdaşlıq | *Muradov R.Ş.* ***Biznesin etikası.****; 5 fəsil* |

| | | | |
|---|---|---|---|
| | | və onun növləri. Korporativ sosial məsuliyyətin tipləri. Korporativ sosial məsuliyyətin əsas prinsipləri. Korporativ sosial məsuliyyətin müəyyən edilməsinə 5 əsas yanaşma. KSM-nin Azərbaycanın iqtisadi inkişafının təmin olunmasında rolu. Sosial proqramların fəaliyyət sferaları: yaşayış mühitinin mühafizəsi; səhiyyə və ictimai təhlükəsizlik; insan hüquqları; istehlakçıların hüquqlarının mühafizəsi; əlillərə yardım; milli azlıqların məşğulluğunun təmin edilməsi; mədəniyyətlərin inkişafı. Biznes üçün münasib uzunmüddətli perspektivlər. geniş ictimaiyyətin tələbatının və ümidlərinin dəyişməsi. Sosial proqramların həyata keçirilməsində xarici ölkələrin təcrübəsi. | |
| **7** | **Biznesdə makroetika problemləri** | Biznesin dövlət tənzimlənməsinin prinsipləri. Biznes və istehlakçılar arasında əlaqələr sistemi. Korporasiyalar və lokal birliklərin mənəvi əlaqələrinin xüsusiyyəti. Insanın onu əhatə edən təbii mühitlə birgə münasibətləri müasir dövrün ən vacib problemlərindən biri kimi. Sosial azlıqların problemi – işgüzar həyatın xüsusi bir problemi kimi. | *Muradov R.Ş.* ***Biznesin etikası.****; 6 fəsil* |
| **8** | **Inzibati etika** | Biznesin etikasının inzibati etika ilə əlaqəsi. Onların əlaqələrinin əsas məqamları. Təşkilatlarda vəzifəli şəxslərin mənəvi davranış prinsipləri. Neytral etikanın mahiyyəti. Neytral etika nöqteyi-nəzərindən ideal idarəçi təşkilatlarda məqsədə çatmağın etibarlı aləti kimi. Struktur etikasının tərkibi. Inzibati etikanın mövcud olması üçün nəzərdə tutulmuş arqumentlər. İnzibatçıların mənəvi davranış kodeksinin xarakteristikası. Inzibati etikanın mövcudluğu yalnız onun təcrübədə istifadə olunması deyil, həmçinin bu təcrübədə ona vacib rolun verilməsidir. | *Muradov R.Ş.* ***Biznesin etikası.****; 7 fəsil* |
| **9** | **Pesəkar etika** | Peşəkar etika haqqında anlayış. Peşəkar etika özünün müxtəlif peşəkar rollarında qərar qəbul edilməsinə rəhbərlik edən davranış kodeksləri və normalarının cəmi kimi. Peşəkar etikanın müxtəlif növləri ilə birləşmiş etik dilemmaların əhəmiyyəti. Universal etikanın prinsipləri: fərdi etika, peşəkar etika, ümumdünya etikası, prinsiplərin mövcudluğu, universallıq, peşəkar etikanın sosial funksiyaları. Peşəkar etikanın konkret nümunələri. | *Muradov R.Ş.* ***Biznesin etikası.****; 8 fəsil* |
| **10** | **Idarəcilik etikasi** | İdarəçilik etikasının mahiyyəti. Menecerlərin idarəetmədəki rolu və etik qabiliyyətləri. İdarəetmədə rəhbərlik üslublarının xüsusiyyətləri. Rəhbərliyin səmərəliliyinə təsir edən amillər. Liderlik və onun xüsusiyyətləri. Münaqişələr onların əmələ gəlməsi səbəbləri: məqsədlərin müxtəlifliyi; tərəf müqabillərin psixoloji uyğunsuzluğu; danışıqların təşkilində mövcud olan çatışmamazlıqlar; qeyri-qənaətbəxş kommunikqasiyalar; tərəflərdən birinin səlahiyyətsizliyi; səriştəsizlik. Münaqişələrin qruplaşdırılması. Funksional və disfunksional münaqişələr. Münaqişələrin tipləri: məqsədlərin münaqişəsi; idrak münaqişəsi; hissiyatlı münaqişə. Münaqişəli situasiyaların həlli və idarə edilməsi metodlarının mahiyyəti. Münaqişədən yayınma: güc metodları; əməkdaşlıq stili; digər | *Muradov R.Ş.* ***Biznesin etikası.****; 11 fəsil* |

| | | | |
|---|---|---|---|
| | | tərəfin vəziyyətini anlamağa can atmaq; kompromisə səy göstərmək. Münaqişəli situasiyaların idarə edilməsi metodları: şəxsiyyətlərarası və struktur metodlar. Münaqişələrin həll olunmasında rəhbərlərin rolu. Rəhbərlərin qarşısında duran əsas məsələlər. | |
| **11** | **Iqtisadi etika** | İqtisadi etikanın yaranması və inkişafı. İqtisadi etikanı tərənnüm edən ilk mütəfəkkirlərin əsas fikirləri. İqtisadiyyat və mənəviyyatın nisbəti. Xrematistika və sxolastika. Orta əsrlərdə iqtisadi etikanın inkişafı və "ədalətli qiymət" təlimi. İqtisadi etikanın əsas problemləri. İqtisadi etikanın əsas dəyərləri - səmərəlilik, ədalət, təsərrüfatçılıq və mənfəət. İqtisadi etikaya müxtəlif baxışlar. H.Fordun iqtisadi etika konsepsiyası. H.Fordun iqtisadi etika prinsipləri. Iqtisadi etika anlayışı, onun mahiyyəti və məzmunu. Sahibkarların etik kodeksinin (məcəlləsinin) əsas müddəaları. Işçilər üçün yüksək əmək haqqı və istehsal olunan məhsullara aşağı qiymətlər səviyyəsinin müəyyən edilməsi. Işçilərin iş, məişət şəraitinin yaxşılaşdırılması və səhiyyə xidmətinin təşkili. Pensiyaçıların pensiyalarla və müəyyən kreditlərlə təmin edilməsi. Şirkətin aksiyalarının işçilərə satılmasının təşkili.Sosial təftişlərin təşkili və keçirilməsi. | *Muradov R.Ş.* ***Biznesin etikası.****; 12 fəsil* |
| **12** | **Biznesdə etiket** | Etiket haqqında anlayış. Etiket ictimai yerlərdə və digər insanlarla ünsiyyətdə davranış qaydalarının sistemi kimi. Biznes sferasında etiketin əsas tələbləri: nəzakətlilik; korrektlilik; taktiklilik; delikatlılıq; təvazökarlılıq; davranışın təbiiliyi; dəqiqlilik; mütləqlilik. Biznesmenlərin işgüzar davranışının mənəvi-etik qaydaları. Biznesmenlərin işgüzar etiket qaydaları. Rəsmi qəbulların mahiyyəti və təşkili qaydaları. Qəbulların gedişində işgüzar mühitin təmin edilməsi. Qəbullarda geyim və davranış qaydaları. | http://muallim.unec.edu.az/ |
| **13** | **Işgüzar münasibətlər etikasi** | Işgüzar münasibətlərin formalaşdırılıması etikası. Işgüzar görüşlərin və danışıqların təşkili və keçirilməsi etikası. Tərəf müqabillərinin qəbul edilməsi proqramının hazırlanması. Danışıqların iştirakçılar qrupunun formalaşdırılması. Danışıqların vaxtının və yerinin müəyyən edilməsi. Iclasların gündəliyinin hazırlanması və tərəflərlə razılaşdırılması. Problemin həll edilməsində danışıqların tərəflərinin maraqlarının nəzərə alınması. Danışıqlar prosesində şəxsi mövqeyin müəyyən edilməsi. Danışıqların nəticələrinin mümkün variantlarının qiymətləndirilməsi. Danışıqlarda taktiki mövqeyin müəyyən edilməsi. Danışıqların gedişinə tətbiq edilən üsullar: "mübarizədən yayınma"; "paketləşdirmə", "tələblərin artırılması"; "şəxsi mövqeydə alladıcı məqamların yerləşdirilməsi"; "son məqamda tələblərin irəli sürülməsi". Danışıqların səmərəli keçirilməsində nitq mədəniyyətinin rolu. Danışıqların gedişində tətbiq edilən digər ünsiyyət vasitələri: sifətin ifadəsi; yeriş; əlsıxmaq; pozalar; jestlər. Prinsipial danışıqlar metodu. Danışıqların strukturu. Danışıqların strukturunun | http://muallim.unec.edu.az/ |

| | | | |
|---|---|---|---|
| | | əsas elementləri: insanlar; maraqlar; variantlar; amillər. | |
| **14** | **Islamda işgüzar münasibətlər etikasi** | İslam dinini biznesə münasibəti. İslamiyyətdə sahibkarlıq ənənələri və əsas mənəvi dəyərlər. Qurani-Kərimdə iqtisadi dəyərlər və biznesin inkişafının təmin edilməsində onların rolu. İslamda iqtisadi münasibətlər sistemi.Mülkiyyət hüquqlarının toxunulmazlığı. Ticarət və biznesin təşviqi. İslam dinində təşviq edilən vergi formaları. | *Muradov R.Ş.* ***Biznesin etikası.****; 9 fəsil* |
| **15** | **Azərbaycanın müasir işgüzar etikasi** | Ölkə biznesində etik prinsiplərin həyata keçirilməsi mexanizmləri. Təşkilatlarda işgüzar etik standartların istifadə olunması təcrübəsi. Sahibkarların tərəfdaşları ilə münasibətləri. Qeyri-formal iqtisadi münasibətlərin rolu və əhəmiyyəti. Müqavilələrin yerinə yetirilməsində məsuliyyətsizlik – bugünkü işgüzar münasibətlərin problemlərindən biri kimi. Rəhbər strukturlar və onların nümayəndələri ilə münasibətlərin xarakteri. Azərbaycan sahibkarlarının "etik səviyyəsinin yüksəldilməsi" problemi. Sahibkarlar və xeyriyyəçilik. Sahibkarların işgüzar davranışının mühüm etik əhəmiyyəti. Biznes aləmində mənəvi əsasların formalaşması. | *Muradov R.Ş.* ***Biznesin etikası.****; 10 fəsil* |

## XII. Fənnin seminar məşğələləri:

Seminar məşğələlərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə etməli və düşüncələrini arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Bunun üçün o :

- ✓ Hər bir mövzu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
- ✓ Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
- ✓ Tövsiyyə olunan ədəbiyyatlardan da istifadə edərək, hər bir sual üzrə qısa çıxış hazırlamalı;
- ✓ Verilmiş praktiki tapşırıqları yerinə yetirməlidir.

## XIII. Fənn üzrə kurs işi:

Bu fənn üçün kurs işi nəzərdə tutulmamışdır.

## XIV. Fənnin attestasiyası (qiymətləndirmə):

Fənn üzrə krediti yığmaq üçün lazımi 100 balın toplanması aşağıdakı kimi olacaqdır:

20 bal – imtahana qədər, yəni seminar dərslərində, 30 bal aralıq imtahanda və 50 bal yekun imtahanda (yazılı suallar) hesablanacaqdır.

Seminar məşğələ dərslərində qiymətləndirmə zamanı tələbələr 2 dəfə sərbəst mövzu seçərək məruzə etməli, bir prezentasiya hazırlamalı və 1 keys üzrə sərbəst

tapşırığı fənn müəlliminə təqdim etməlidirlər. Bütün bu fəaliyyətlər 10 ballıq sistem üzərindən aşağıdakı meyarlar üzrə hesablanacaqdır:

"0" – tələbə dərsə tamamilə hazır deyil;

"1" – tələbənin mövzu barədə xırda təsəvvürü vardır;

"2" – tələbə mövzu haqda müəyyən təsəvvürü (planı və ədəbiyyatı) vardır;

"3" – tələbənin mövzudan ümumi xəbəri var və 1 sualı mükəmməl bilir;

"4" - tələbə mövzu barədə 2 sualı mükəmməl bilir, əlavə suallara dəqiq cavab verir;

"5" - tələbə mövzu barədə 3 sualı mükəmməl bilir, əlavə suallara dəqiq cavab verir;

"6 - 7" - tələbə mövzu barədə 4 sualı mükəmməl bilir, əlavə suallara dəqiq cavab verir;

"8" - tələbə mövzu ətrafında verilən bütün suallara dəqiq cavab verir, əlavə ədəbiyyatdan bacarıqla istifadə edir;

"9" - tələbə mövzu barədə tapşırılmış bütün suallara dəqiq cavab verir, əlavə ədəbiyyatdan və statistik məlumatlardan bacarıqla istifadə edir;

"10" - tələbə mövzunun bütün suallarına dəqiq cavab verir, əlavə ədəbiyyatdan və statistik məlumatlardan bacarıqla istifadə edərək fikirlərini əsaslandırmagı bacarır, habelə ölkənin qanunvericilik aktlarına istinad edə bilir.

**XVI. Fənn üzrə imtahan (qiymətləndirmə):**

| | | |
|---|---|---|
| Tələbələrin sərbəst (qrup) işinə görə | - | - |
| Seminar (məşğələ) dərslərinin nəticələrinə görə | 20 bal | 20 % |
| Ara imtahan | 30 bal | 30 % |
| Yekun imtahan | 50 bal | 50% |
| Semestr nəticəsinə görə | 100 bal | 100% |

İmtahanlar yazılı şəkildə həyata keçirilir. Tələbələrə ümumilikdə 75 sual təqdim ediləcəkdir. Yekun imtahanda qiymətləndirmə 5 sual olmaqla iki asan (hər biri 5 balla qiymətləndiriləcəkdir), iki orta (hər biri 10 balla qiymətləndiriləcəkdir), bir çətin (20 balla qiymətləndiriləcəkdir).

İmtahan və imtahana qədər toplanan ballar cəmlənir və yekun miqdarı aşağıdakı kimi qiymətləndirilir:

**Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana gədər toplanan ballar əsasında)**

| | | |
|---|---|---|
| 91-100 bal | A | əla |
| 81-90 bal | B | çox yaxşı |
| 71-80 bal | C | yaxşı |
| 61-70 bal | D | kafi |
| 51-60 bal | E | qənaətbəxş |
| 51 baldan aşağı | F | qeyri-kafi |

**Qeyd:** İmtahanda minimum 17 bal toplanmasa imtahana qədər yığılan ballar toplanılmayacaq.

**TƏRTİB EDƏN MÜƏLLİF:**

**Professor, iqtisad elmləri doktoru R.Ş.MURADOV**

______________________